## AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ

AZ 1025, Bakı şəhəri, Yusif Səfərov küçəsi 26 Tel.: (+994 12) 489-07-07 Faks: (+994 12) 498-72-69 Veb: www.supremecourt.gov.az Elektron poçt: contact@supremecourt.gov.az

**7 avqust 2026-cı il** **1-8-11-2/2-6556/2026**

**Azərbaycan Respublikasının rayon (şəhər), hərbi və apellyasiya məhkəmələrinə**

# İ C M A L

(*cinayət təqibi zamanı statistik sirr təşkil edən məlumatların əldə edilməsi ilə bağlı bəzi hüquqi məsələlərə dair*)

**I.** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (bundan sonra- Dövlət Statistika Komitəsi) Azərbaycan Respublikasının Ali Məhkəməsinə müraciət edərək maliyyə əməliyyatları, bank hesablarının vəziyyəti və vergilərin ödənilməsi barədə məlumatlar daxil olmaqla, şəxsi, ailə, dövlət, kommersiya və ya peşə sirrini təşkil edən məlumatların əldə edilməsinə dair işlərə baxılarkən statistik sirr hesab olunan məlumatların Dövlət Statistika Komitəsindən sorğu edilməsi ilə bağlı hüquqtətbiqetmə təcrübəsi üzrə izahların verilməsini xahiş etmişdir.

Müraciətin məzmununa görə, izahın verilməsinin zəruriliyi onunla əsaslandırılır ki, "Rəsmi statistika haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra- "Rəsmi statistika haqqında" Qanun) 15-ci maddəsinə əsasən statistik məqsədlər üçün toplanmış ilkin məlumatlardan yalnız rəsmi statistikanın hazırlanması, habelə qanunda nəzərdə tutulan müstəsna hallarda anonimləşdirilmiş şəkildə elmi məqsədlər üçün istifadə oluna bilər. Bununla yanaşı, son dövrlərdə məhkəmələr tərəfindən cinayət prosesində maliyyə əməliyyatları, bank hesablarının vəziyyəti və vergilərin ödənilməsi barədə məlumatların daxil olmaqla kommersiya və ya peşə sirrini təşkil edən məlumatların ələ keçirilməsinə dair müraciətlərə baxılarkən statistik sirr təşkil edən məlumatların Dövlət Statistika Komitəsindən tələb edilməsi təcrübəsi formalaşmışdır. Dövlət Statistika Komitəsinin qənaətinə görə, belə yanaşma "Rəsmi statistika haqqında" Qanunun 15-ci maddəsində

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.sesda.az/info/esign/EHGg6PZFoeqASaFfHXgY6Rfg7R%2FBxn%2FQcmSZBITHCjg%3D

təsbit olunmuş statistik məxfiliyin qorunması prinsipinə və bu sahədə tətbiq olunan beynəlxalq standartlara uyğun gəlmir.

Bu səbəbdən müraciətdə maliyyə əməliyyatları, bank hesablarının vəziyyəti və vergilərin ödənilməsi barədə məlumatlar daxil olmaqla, şəxsi, ailə, dövlət, kommersiya və ya peşə sirrini təşkil edən məlumatların əldə edilməsi ilə bağlı işlərə baxılarkən məhkəmələr tərəfindən belə məlumatların Dövlət Statistika Komitəsindən tələb olunmasının qanunauyğunluğu ilə bağlı vahid məhkəmə təcrübəsinin formalaşdırılmasının hüquqtətbiqetmə təcrübəsi üçün əhəmiyyətli olduğu vurğulanır.

**II.** Müraciətdə qaldırılan məsələ ilə əlaqədar aşağıdakı izahın verilməsi məqsədəuyğun hesab edilir.

"Rəsmi statistika haqqında" Qanunun 16-cı maddəsinin birinci abzasına əsasən rəsmi statistikanın aparılması üçün yığılan, işlənən və məlumatlar bazasına daxil edilən, birbaşa və ya dolayı yolla statistik vahidlərin tanınmasına və beləliklə də, ilkin məlumatların əldə edilməsinə imkan verən hüquqi və fiziki şəxslərin ilkin statistik məlumatları konfidensial sayılır və statistik sirdir.

Qeyd edilməlidir ki, statistik məlumatların statistik sirr təşkil etməsi onların məzmun etibarilə şəxsi, ailə, dövlət, kommersiya və ya peşə sirrini təşkil edən məlumat kateqoriyalarına aid olmasını istisna etmir. Belə ki, statistik hesabatlarda əks olunan məlumatlar konkret hallarda hüquqi və fiziki şəxslərin maliyyə vəziyyəti, təsərrüfat fəaliyyəti, istehsal göstəriciləri, əmək münasibətləri ilə bağlı və digər kommersiya və ya peşə sirri xarakterli məlumatları əhatə edə bilər.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra- Konstitusiya) 32-ci maddəsinə əsasən hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır. Qanunla nəzərdə tutulan hallardan başqa, şəxsi və ailə həyatına müdaxilə etmək qadağandır.

Eyni zamanda "Rəsmi statistika haqqında" Qanunun 15-ci maddəsinin üçüncü abzasına əsasən statistik məqsədlər üçün yığılan ilkin məlumatlar başqa məqsədlər üçün istifadə oluna bilməz. Həmin normanın əvvəlki redaksiyasında mövcud olmuş "məhkəmə qərarları əsasında verilmiş məlumatlar istisna olmaqla" sözlərinin sonradan qanundan çıxarılması özlüyündə statistik sirr təşkil edən məlumatların məhkəmə qərarları əsasında verilməsinin qadağan edilməsi kimi qiymətləndirilmir. Qanunvericilikdə bununla bağlı birbaşa qadağa müəyyən edən imperativ norma təsbit edilməmiş, habelə həmin Qanunun 16-cı maddəsində qeyd edilmişdir ki, *qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla,* hüquqi və (və ya) fiziki şəxsin razılığı olmadan onlar haqqında məlumatların açıqlanması statistik sirr təşkil edən məlumatların aşkarlanması, yaxud yayılması hesab olunur.

Odur ki, statistik sirr təşkil edən məlumatların məhkəmə qərarları əsasında verilməsi Konstitusiyanın 32-ci maddəsində və "Rəsmi statistika haqqında" Qanunun 16-cı maddəsində təsbit edilmiş "*qanunda nəzərdə tutulmuş hal*"a aiddir.

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.sesda.az/info/esign/EHGg6PZFoeqASaFfHXgY6Rfg7R%2FBxn%2FQcmSZBITHCjg%3D

Statistik sirr təşkil edən məlumatların əldə edilməsi haqqında müraciətlərə məhkəmə nəzarəti qaydasında baxılması ilə bağlı isə qeyd olunmalıdır ki, cinayət təqibi zamanı sübutların toplanmasını tənzimləyən Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra- CPM) 143.2-ci maddəsinə əsasən, təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə cinayət prosesi tərəflərinin vəsatəti, yaxud öz təşəbbüsü ilə sübutların toplanması prosesində fiziki, hüquqi və vəzifəli şəxslərdən, habelə əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlardan cinayət təqibi üzrə əhəmiyyət kəsb edən sənəd və əşyaların, elektron verilənlərin təqdim edilməsini, yoxlama və təftişin keçirilməsini səlahiyyətli orqanlardan və vəzifəli şəxslərdən tələb etməyə haqlıdır. Həmin Məcəllənin 177.3.6 və 177.4-cü maddələrinə əsasən, maliyyə əməliyyatları, bank hesablarının vəziyyəti və vergilərin ödənilməsi barədə məlumatlar daxil olmaqla, şəxsi, ailə, dövlət, kommersiya və ya peşə sirrini təşkil edən məlumatların ələ keçirilməsi istintaq hərəkəti yalnız məhkəmənin qərarı əsasında aparıla bilər.

Bu baxımdan cinayət təqibini həyata keçirən orqan konkret cinayət işi üzrə sübutetmə predmetinə aid olan məlumatların müəyyən dövlət orqanının və ya digər şəxsin sərəncamında olduğunu hesab etdikdə həmin məlumatların əldə olunması məqsədilə qanunla müəyyən edilmiş qaydada məhkəməyə təqdimatla müraciət etmək hüququna malikdir. Məhkəmə isə bu halda təqdimatda tələb olunan məlumatların əldə edilməsini cinayət işinin istintaqının aparılması üçün əsaslı hesab edərsə və tələb olunan məlumatların təqdimatda göstərilən qurumların və ya şəxslərin sərəncamında olmasını müəyyən edərsə, eləcə də qanunvericilikdə qeyd edilən məlumatların həmin qurumdan, yaxud şəxsdən tələb edilməsini istisna edən hər hansı imperativ norma nəzərdə tutulmadığı təqdirdə təqdimatı təmin etməyə haqlıdır.

Belə ki, Dövlət Statistika Komitəsindən əldə olunan məlumatlar cinayət işi üzrə sübutların axtarılıb tapılması üçün əsas ola, bununla əlaqədar toplanmış materiallar isə CPM-in 144-cü maddəsinə müvafiq surətdə yoxlanıldıqdan sonra cinayət təqibi üzrə icraatda sübut kimi istifadə oluna bilər.

Bununla yanaşı, CPM-in 446.2.7-ci maddəsinə əsasən istintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi, cinayət təqibi üzrə qiyabi icraatın açılması və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi nəticəsində hansı nəticənin əldə edilməli olduğu və nə üçün həmin nəticənin digər üsul və vasitələrlə əldə edilməsinin mümkün olmaması vəsatətdə göstərilməlidir.

Statistik sirr təşkil edən məlumatların əldə edilməsi haqqında müraciətlərə məhkəmə nəzarəti qaydasında baxarkən məhkəmələr nəzərə almalıdırlar ki, CPM-in 446-cı maddəsinin tələblərinə uyğun olaraq, bu cür məlumatların iş üçün əhəmiyyəti, onların digər üsul və vasitələrlə əldə edilməsinin mümkün olmaması, eləcə də həmin məlumatların məhz aidiyyəti qurumun sərəncamında olması müəyyən edilməli, təqdimatın qanuniliyi və əsaslılığı zərurilik, proporsionallıq və subsidiarlıq meyarları əsasında yoxlanılmalıdır.

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.sesda.az/info/esign/EHGg6PZFoeqASaFfHXgY6Rfg7R%2FBxn%2FQcmSZBITHCjg%3D

Digər tərəfdən Dövlət Statistika Komitəsində toplanan statistik sirr təşkil edən məlumatlar, bir qayda olaraq, hüquqi və fiziki şəxslər tərəfindən təqdim edilmiş ilkin statistik məlumatlar əsasında formalaşdırılır. Bu baxımdan konkret cinayət işi üzrə əhəmiyyət kəsb edən məlumatların əldə edilməsi zərurəti yarandıqda həmin məlumatlar mümkün olduğu hallarda ilk növbədə onları təqdim etmiş hüquqi və fiziki şəxslərdən, yaxud müvafiq dövlət orqanlarından əldə edilməlidir.

Bu səbəbdən Dövlət Statistika Komitəsindən statistik sirr təşkil edən məlumatların əldə olunmasına dair vəsatətdə (təqdimatda) həmin məlumatların digər ilkin mənbələrdən əldə edilməsinin nə üçün mümkün olmadığı və ya obyektiv səbəblərdən həddindən artıq çətin olduğu əsaslandırılmalıdır. Belə əsaslandırma, xüsusilə, ilkin məlumatların saxlanılmaması, məhv olması, əldə edilməsinin hüquqi və ya faktiki baxımdan mümkünsüzlüyü və ya digər analoji hallarla əlaqədar ola bilər.

Bu baxımdan statistik sirr təşkil edən məlumatların əldə edilməsi haqqında müraciətlərə baxarkən məhkəmələr yalnız təqdimatın onun forma və məzmununa dair tələblərə uyğunluğunu deyil, həm də müvafiq məlumatlarla bağlı Dövlət Statistika Komitəsinə müraciət olunmasının zəruriliyini və həmin məlumatların digər ilkin mənbələrdən əldə edilməsinin obyektiv olaraq mümkün olub-olmamasını yoxlamalıdırlar. Yalnız belə məlumatların başqa mənbələrdən əldə edilməsinin obyektiv olaraq qeyri-mümkün və ya həddindən artıq çətin olduğu müəyyən edildiyi müstəsna hallarda həmin məlumatların Dövlət Statistika Komitəsindən götürülməsinə dair vəsatət (təqdimat) təmin edilə bilər.

**Cinayət kollegiyasının sədri** **Hafiz Nəsibov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.sesda.az/info/esign/EHGg6PZFoeqASaFfHXgY6Rfg7R%2FBxn%2FQcmSZBITHCjg%3D